# "Nadir muğam ifaçıları" layihəsi çərçivəsində növbəti tədbir



**Beynəlxalq Muğam Mərkəzində (BMM) "Nadir muğam ifaçıları" layihəsi çərçivəsində muğam sənətinin dərin bilicisi və sevilən xanəndə, Xalq artisti Hacıbaba Hüseynovun 105 illiyinə həsr olunan tədbir keçirilib.**

Tədbirdə BMM-nin direktoru, Əməkdar artist Sahib Paşazadə çıxış edərək rəhbərlik etdiyi sənət məbədində mütəmadi olaraq ustad xanəndələrin, muğam ifaçılarının xatirəsinə həsr olunan tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Hacıbaba Hüseynovun Azərbaycan muğam və qəzəl sənətinə verdiyi əvəzsiz töhfələrdən söz açan S.Paşazadə bildirdib ki, onun yaratdığı çoxsaylı təsnif musiqi irsinə daxil olub və muğam ifaçılığında geniş yayılıb: "Hacıbaba Hüseynov xalq yaradıcılığına da böyük diqqət verib. Azərbaycanın müxtəlif bölgələrində, habelə Türkiyə və İraqda oxunan xalq yaradıcılıq nümunələrini təsniflərdə istifadə edib, beləliklə, xalqdan topladığını yeniləmiş şəkildə xalqa qaytararaq, bu sənət əsərlərinin tanınmasına və sevilməsinə zəmin yaradıb".

Tədbirdə Əməkdar incəsənət xadimi, xanəndə Aqil Məlikov, Əməkdar artist Mirnazim Əsədullayev Hacıbaba Hüseynovla bağlı xatirələrini bölüşərək unudulmaz sənətkarın muğam sənətimizdə öz dəst-xəti olduğunu vurğulayıblar. Bildirilib ki, xanəndənin sənəti, ədəbi yaradıcılığı, bəstələri, təsnifləri muğam sənətimiz var olduqca yaşayacaq. Azərbaycanın muğam məktəbinin təbliği və inkişafında Hacıbaba Hüseynovun özünəməxsus yeri var.

Natiqlər, həmçinin Hacıbaba Hüseynovun gənc muğam ifaçılarının yetişməsi istiqamətində bir müəllim kimi yorulmaz fəaliyyətini də xüsusi qeyd ediblər.

Xalq artisti Teyyub Aslanovun, Əməkdar incəsənət xadimi Aqil Məlikovun, BMM-nin solistləri Hüseyn Məlikov, Məmməd Nəcəfov, xanəndə Elbrus Niftəliyevin Hacıbaba Hüseynovun repertuarından təqdim etdikləri rəngarəng ifalar tədbir iştirakçılarının könlünü oxşayıb. Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərliyi ilə BMM-nin solistlərindən ibarət instrumental heyət, Əməkdar artist Əliağa Sədiyevin rəhbərliyi ilə "Xarıbülbül" muğam qrupu və Əməkdar artist Emil Əfrasiyab müşayiət edib.

Azərbaycan.- 2025.- 11 yanvar (№ 5).- S.11.